**UOT 81'44** (tipologiya); **811.512.1** (türk dilləri); **81'342.622** (ablaut)

# DİLÇİLİKDƏ TÜRK SAİTİNİN TİPOLOJİ "MİSSİYASI" PROBLEMİ
## (bir daha ilkin "türk ablautu" haqqında)

**A.Y.HACIYEVA**
***Azərbaycan Dillər Universiteti***
***ayten-haciyeva@yandex.ru***

*Məqalədə iltisaqi quruluşlu türk dillərində yer alan və ilkin "türk ablautu" kimi səciyyələndirilən kökdaxili səs əvəzlənməsi halları araşdırılır. Müəllif monovokalik nəzəriyyə müstəvisində dəyərləndirdiyi erkən türk "daxili fleksiyası"nın yaranma səbəb və şəraitini müəyyənləşdirir.*

**Açar sözlər:** türk dilləri, iltisaqi və flektiv mexanizmlər, ablaut, monovokalik nəzəriyyə, tipologiya

Yarandığı dövrdən etibarən ətrafında qızğın diskussiya və mübahisələr bitməyən dilçilik sahəsi olan linqvistik tipologiya dillərin təsnifatlandırması işində əsas sistem yanaşmanı ortaya qoymasına baxmayaraq, həmin sistemin işləkliyini təmin edə biləcək araşdırma mexanizmləri və bölgü meyarları ilə bağlı hələ də tam yekdil rəy formalaşdırmağa müvəffəq olmamışdır. Belə ki, məlum olduğuna görə, az sayda istisnalar nəzərə alınmasa, Şlegellərin bölgüsünü təkmilləşdirməklə müasir tipologiyanın banisi sayılan Hrmboldtun dördlü bölgüsü morfoloji klassifikasiyanın və bütövlükdə, linqvistik tipologiyanın vaz keçilməz istinad mənbəyi sayılır. Lakin bütün tənqid və hətta, inkarçı etirazlara baxmayaraq, bu tipoloji bölgünü əvəzləyə biləcək yeni klassifikasiya ortaya qoyulmayıb və eyni zamanda, digər tərəfdən də, ötən müddət ərzində ortaya çıxmış, demək olar ki, heç bir tipoloji tədqiqat həmin bölgünün qüsurlarının hədəf almadan ötüşməyib. Bəs bu qədər ziddiyyət və polemika doğuran nədir? Hansı səbəbdən tipolji təsnifatın məqsədəmüvafiqliyini şübhə altına almış bəzi dilçilər onun, sadəcə, xarakterologiya ilə əvəzlənməsini təklif etmişlər? Demək olar ki, bütün əks fikirlərin formalaşmasında əsas səbəb dillərin qeyri – steril tipoloji təbiətə malik olmasının onlara verilən "iltisaqi", "flektiv", "amorf" və ya "inkorparlaşan dil" etiketlərində tam şəkildə əks olunmaması ilə bağlıdır. Daha dəqiq desək, bu və ya digər dildəki aparıcı tipoloji tendensiya olan qrammatik determinantanın digər tipoloji təmayül ünsürlərinə "yaşam hüququ" tanıması ilə əlaqədardır [2; 3].

Lakin irəlidə aydın şəkildə izləyəcəyimiz kimi, ilk baxışdan, dilin əsas tipoloji xarakteristikasına zidd sayılan həmin mexanizm və elementlər, əslində, bir çox halda elə həmin dilin özünün daxili quruluş tələbatları ilə sanksiyalaşdırılır. Yəni, qrammatik interferensiya hallarını nəzərə almasaq, dildəki, demək olar ki, bütün tipolji sapma hallarının, əslində, həmin mərhələyə aid determinanta (yəni, aparıcı təmayül) mexanizmlərinin özünəməxsusluqlarının "davamı", "fəsadı" kimi səciyyələndirə bilərək.

İltisaqi quruluşun dayanıqlığının səbəblərini araşdırmış bir çox dilçilər, bu təmayülün konservatizmində paradiqmanın aksial strukturunun kökü müdaxilələrdən mühafizə etməyə istiqamətlənməsinin çox önəmli rol oynadığını bildirsələr də və hətta məhz paradiqmanın aksial strukturunun «***təmiz (xalis) iltisaqi dillərdə ümumiyyətlə təsadüf edilməyən ablaut kimi hadisələrin meydana gəlməsinə mane olduğunu***» (kursiv bizimdir – A.H.) önə sürsələr də [17, 12, 14], mövcud dil faktları bir qədər fərqli mətləblərdən xəbər verir. Belə ki, həqiqətən də, iltisaqi təmayül, özünün ideal realizasiyasını qazandığı istənilən dildə ablaut səciyyəli hadisələrin yer almasına qəti şəkildə imkan tanımasa da, belə «təmiz aqlütinativliy»in prinsipcə qeyri-mümkünlüyü, flektiv dillərdəki bəzi vasitələrin (eyni keyfiyyət və ya kəmiyyətdə olmasa belə) aqlütinativ dil mühitinə yol tapması üçün müəyyən mənada «açıq qapı» qoymuş olur. Bu məqamda Boduen de Kurtenenin flektivliyin bütün dünya dillərində təsadüf edilməsi [6, 181] haqqında mülahizəsini, morfemdaxili səs əvəzlənmələrinin yalnız «flektiv adlandırılan» dillərə xas olmadığını bildirən N.S.Trubetskoyun analoji halların, eləcə də, məhz ablautun fin-uqor dilləri üçün yetərincə xas olması ilə bağlı fikirlərini [18, 118] xatırlasaq, eləcə də bu qəbildən hadisələrin digər iltisaqi dillərdə, konkret olaraq, Qafqaz-İber, monqol, yapon və eləcə də türk dillərində və s. yer alması ilə əlaqədar mülahizələri də nəzərə alsaq, aqlütinativliyin real durumunun arzu edilən ideal «təmiz» dil tipi xarakteristikasına bir o qədər də uyğun gəlmədiyi yəqinləşər. Məhz bu kimi faktların bəzi hallarda kütləvilik nümayiş etdirməsi bir qisim tədqiqatçıların fin-uqor dillərinin flektivləşmə mərhələsində olması ilə bağlı ehtimallar səsləndirməsinə rəvac vermişdir [13, 217]. Altay ailəsinə daxil olan dillərdə kökdaxili səs əvəzlənməsinə yol açan insirafi elementlər yuxarıda qeyd olunan fin-uqor dilləri ilə müqayisədə daha az kütləviliyə malik olsa da, hətta flektiv mexanizmin bu istiqamətli proseslərdəki iş əmsalı, bəzi tədqiqatçıların Altay kökünün toxunulmazlığı prinsipinin artıq kifayət qədər şərti olması qənaətinə gəlməsinə [12, 33] təkan vermişdir.

Türk dillərinin erkən söz yaradıcılığına aid bir çox tədqiqatda "türk ablautu" olaraq xarakterizə edilən kökdaxili səs əvəzlənməsi hallarının mövcudluğu təsbit edilmişdir. Məs: **qaç/qıç, al/əl; tik/tıx/tox** və s. Bəzi hallarda «daxili fleksiya» adı altında tanımlanan linqvistik faktların böyük bir qismini sözyaradıcılığına xidmət edən kökdaxili səs əvəzlənmələri əhatə edir. Onların aqlütinativ dil mühitində yer almasından qaynaqlanan spesifikliyinin vurğulanmasına baxmayaraq, erkən iltisaqilik üçün xarakterik olması etiraf edilir.

Belə ki, istər monqol və tunqus-mancur dillərinə həsr olunmuş tədqiqatlardan, istər fin-uqorşünaslıqdakı, istərsə də türkologiyadakı və o cümlədən, Azərbaycan dilçiliyində müvafiq istiqamətli araşdırmalardan bu qəbildən ünsürlərin məhz erkən dövr aqlütinativliyinə xas olması fikri hasil olunur. Daha dəqiq olsaq, bu mövzuya həsr olunmuş «xüsusi tədqiqatlarda, …bu və ya digər səviyyədə təzahür tapan və sait səs əvəzlənmələri ilə səciyyələnən ablaut hallarının (aqlütinativ quruluş üçün – A.H.) əsasən arxaizm xarakteri kəsb etdiyi qeyd olunur» [12, 145] və bu, bir çox halda, iltisaqiliyəqədərki mərhələdə (bu və ya digər səbəblərdən dolayı) kök morfemin fonetik cildinin sabit olmaması ilə əlaqələndirilir [2, 19-21].

"Türk ablautu" hadisəsinin yaranma səbəbləri və şəraiti ilə bağlı məsələlərin təhlilinə daha dərindən nüfuz edincə, B.A.Serebrennikovun qrammatik məna fərqləndiricilik missiyasını üzərinə götürmüş "affiksal türk ablautunun srrini" müəyyənləşdirərkən söylədiyi fikirlərə müəyyən haqlılıq payı tanıyırsan. Belə ki, alim türk dillərində saitin nisbi ixtiyariliyi fonunda samit səslərin daha sabitlik nümayiş etdirməsindən çıxış edərək "türk ablautunu" sami dil fleksiyası ilə müqayisə etmişdir [18, 42-47]. Maraqlıdır ki, sami fleksiyasının özünün, məhz qeyd edilən bu təbiəti onun aqlütinativliyi ilə bağlı fikirlər səsləndirilməsinə rəvac vermişdir. Belə ki, İ.A.Melçuk sami diffiksinin iltisaqi təbiətli olması fikrini səsləndirmiş və bu ideya [16, 27-40]", hətta, bəzi samişünaslar tərəfindən təqdirlə qarşılanmışdır.

"Dilin fonematikliyə qədərki ibtidai dövründə təmiz saitlərin mövcud olmaması antropologiya və linqvistikada etiraf edilən hadisədir" və bir qisim tədqiqatçılar vokal səslərin dilin ilkin yaranış mərhələsində ya tamamən mövcud olmadığını və ya bir diffuz səs qismində təzahür tapdığını önə sürürlər [9, 114-116 ]. F.de Sössürün "larinqal" samitlərin təsiri ilə vokal səslərin keyfiyyət və kəmiyyətcə dəyişməsi haqqında ideyasından ilhamlanan sonuncu qrup alimlər erkən mərhələdə saitin əsas məna yükü daşıyıcısı olan samitin "akkompanementi" funksiyasını icra etdiyini bildirmişlər [10, 210-214]. Maraqlıdır ki, müasir dillərin müqayisəsi əsasında bütün dillər üçün "ulu dilin" mənzərəsini bərpa etməyə çalışmış M.Svodeşin rekonstruksiya modelində on bir samit və yalnız bir saitin yer alması" heç də təsadüfi sayıla bilməz.

"Ural–Altay dillərinin qədim tipində, ümumiyyətlə, saitlər olmayıb, yalnız təkcə samit fonemlər mövcud olub" – fikrinin müəllifi İ.van Ginnegen və eləcə də "türk vokalizminin konsonantizmdən asılılığını" önə sürən İ.Kramskinin mülahizələrinə əsaslanan M.Mollova qeyd edir ki, türkoloji ədəbiyyatalrda səs əvəzlənməsi qismində dəyərləndirilən faktlar əslində, "saitlərin zəif fonoloji differensiasiyasının relikt" izlərini təcəssüm etdirir [17, 56-59]. N.A.Baskakov da monovokalizm ideyasının təhlilindən yan keçməyərək, onun əleyhidarlarından sayılan N.S.Trubetskoyla qiyabi polemikaya girərək müasir aqlütinativ quruluşlu türk dillərinin daha öncələr məhz monovokalik xarakterli söz quruluşuna malik amorf quruluş dönəmindən keçdiyini bildirmişdir [3, 20-21].

Kök morfem rekonstruksiyasına dair tədqiqatların ortaya qoyduğu

qiymətli məlumatlar erkən türk saitinin müəyyən mənada qeyri – sabitliyinin olması faktına şübhə yeri qoymur. Məsələn, bu sahədə önəmli araşdırmalara imza atmış V.Aslanovun müəyyənləşdirdiyi *nY,*tY, *bY* (*Y* burada ixtiyari vokal səsə işarədir) və bu kimi kök morfemlər [1, 67-69]. Qeyd olunan fikri əyani şəkildə sübuta yetirir.

Məlum olur ki, bir çox hallarda məhz sait səslər ilkin kökün şəkil dəyişmələrini tam semantik differensiallıq həddinə çatdırmağa müvəffəq olur. Bu isə vaxtilə bir saitli mərhələdəki vokal səs variasiyalarının fərqliləşməsi və fərdiləşməsi mərhələsinin ilkin kökdəki təsir izlərindən başqa bir şey deyil. Sössüz ki, ilkin türk kökünün samit karkası da müəyyən dəyişikliklərə məruz qala bilirdi. Bu məsələ tamamilə fərqli müstəvidə təhlil edilməli olan problemin tərkib hissəsini təşkil etsə də, bu arada onu da əlavə edək ki, həmin dəyişikliklərin mahiyyəti, təkanverici səbəbləri və informativ yükü sait dəyişmələrindən yetərincə fərqlənirdi. Onu da qeyd edək ki, istər "türk ablautu" adlandırılan dil faktlarını, istərsə də "uyğur umlautu" kimi səciyyələndirilən kökdaxili səs əvəzlənmələrini flektiv dillərdəki əsl daxili fleksiya elementləri ilə eyniləşdirmək olmaz [7, 171-176; 2, 3]. Lakin bununla belə, erkən türk ablautunun ilkin kök variantlarının semantik differensiallıq qazanmasında mühüm rol oynaması [8; 279-281] bu kimi halların tipoloji sapma faktları kimi dəyərləndirilməsi üçün tam əsas verir.

**ƏDƏBİYYAT**


1. Aslanov V.İ. Azərbaycan dilinin tarixinə dair tədqiqlər. Bakı: II c. Elm, 2002, 271 s.
2. Hacıyeva A.Y. Aqqlütinativ dillərdə daxili fleksiya və fuziya. Bakı: Nurlan, 2007, 327 s.
3. Hacıyeva A.Y. Linqvistik tipologiyada tipoloji modifikasiya problemi. Bakı: Nurlan, 2008, 282 s.
4. Баскаков Н.А. Историко-типологическая морфология тюркских языков (структура слова и механизм агглютинации). М.: Наука, 1979, 274 с.
5. Баскаков Н. А. Историко-типологическая фонология тюркских языков. М.: Наука, 1988, 208 с.
6. Бодуэн де Куртенэ И.А. Избранные труды по общему языкознанию. Т.II, М.: АН СССР, 1963, 391 с.
7. Гаджиева А.Ю. Ещё раз об относительности сравнения индоевропейских умлаута и фузии с их тюркскими «аналогами» // Актуальные проблемы германистики романистики и русистики. Часть I, Материалы ежегодной научной конференции 3-4 февраля 2012, Екатеринбург: «Режевская типография», 2012, с. 171-176.
8. Гаджиева А.Ю. О семантической дифференциации раннетюркских гомогенных корней (к проблеме «внутрикорневой» антонимии) // Диалектология, история и грамматическая структура тюркских языков. Сборники материалов тюркологической конференции, посвященной памяти академика Д.Г.Тумашевой. Казань: Лаборатория оперативной печати Института филологии и искусств К(П)ФУ, 2011, с.279-281.
9. Газов-Гинзберг А.М. Был ли язык изобразителен в своих истоках? (свидетельство прасемитского запаса корней). М.: Наука, 1965,183 с.
10. Кацнельсон С.Д. Общее и типологическое языкознание. Л.: Наука, 1986, 300 с.
11. Колпакчи Е.М. Очерки по истории японского языка. Том I. Морфология глагола. М.-Л.: АН СССР, 1956, 236 с.
12. Котвич В. Исследование по алтайским языкам. М.: Иностранная литература, 1962, 373 с.

13. Майтинская К.Е.Сравнительная морфология финно-угорских языков / Основы финско-угорского языкознания. Вопросы происхождения и развития финно-угорских языков. М.: Наука, 1974, с.214-382.
14. Мельчук И.А. О «внутренней флексии» в индоевропейских и семитских языках // Вопросы языкознания. М.: АН СССР, 1963, №4, с.27-40.
15. Моллова М. К истории тюркского вокализма // Вопросы языкознания. М.: АН СССР, 1966, № 2, с.56-65.
16. Серебренников Б.А. Загадка аффиксального аблаута а:ы в тюркских языках // Советская тюркология. 1980, Баку: Коммунист, № 3, с. 42-47.
17. Серебренников Б.А. Причины устойчивости агглютинативного строя и вопрос о морфологическом типе языка / Морфологическая типология и проблема классификации языков. М.-Л.: Наука, 1965, с. 7-26.
18. Трубецкой Н.С. Мысли об индоевропейской проблеме // Вопросы языкознания, М.: АН СССР, 1958, №1, с.65-77.

## О ПРОБЛЕМЕ ТИПОЛОГИЧЕСКОЙ «МИССИИ» ТЮРКСКИХ ГЛАСНЫХ В ЛИНГВИСТИКЕ
**(о первичном «тюркском аблауте»)**

**А.Ю.ГАДЖИЕВА**

### РЕЗЮМЕ

В статье исследуются факты первичного «тюркского аблаута», имеющие место в агглютинативных тюркских языках. Автор пытается выявить причину возникновения данного рода внутрикорневых чередований, а так же установить обстоятельства сподвигшие на это. Автор рассматривает проблему первичного «тюркского аблаута» в свете данных моновокалистической теории.

**Ключевые слова:** тюркские языки, агглютинативные и флективные механизмы, аблаут, моновокалистическая теория, типология.

## THE TYPOLOGICAL "MISSION" PROBLEM OF THE TURKIC VOWEL IN LINGUISTICS
**(about the initial "Turkic ablaut")**

**A.Y.HAJIYEVA**

### SUMMARY

The article studies the problems of the root sound interchanges characterized as the initial ‘Turkic ablaut’ in the Turkic languages of the agglutinative structure. The author determines the formation reasons and conditions of the Turkic ‘internal inflexion’ according to the monovocallic theory.

**Key words:** the Turkic languages, agglutinative and inflected mechanisms, ablaut, monovocallic theory, typology.